**Qarşıdakı 3 ildə...**

*Azərbaycan iqtisadiyatının Cənubi Qafqaz iqtisadiyyatında payı 90% təşkil edəcək*

İqtisadi İnkişaf Nazirliyinin (İİN) hazırladığı sosial-iqtisadi inkişaf proqnozlarında qarşıdakı 3 ildə Azərbaycanda iqtisadi artım xüsusi yer tutur. Proqnozlara əsasən, 2013-cü ildə ölkədə ÜDM-in artım tempi 5,1%, 2014-cü ildə 7,7%, 2015-ci ildə isə 6,5% təşkil edəcək. Ümumi daxili məhsulun (ÜDM) strukturunda artım dinamikası, əsasən, qeyri-neft sektorunun inkişafı hesabına baş verəcək. Qeyri-neft sektorunun artım tempinin 2013-cü ildə 7,7% (27,8 mlrd. manat), 2014-cü ildə 8,1% (31,1 mlrd. manat), 2015-ci ildə isə 8,3% (34,7 mlrd. manat) təşkil edəcəyi gözlənilir. Milli məhsulun inkişaf dinamikası ölkə vətəndaşlarının illik gəlirlərinin artımına şərait yaradacaq. 2013-2015-ci illər ərzində ÜDM-də əhalinin hər nəfərinə düşən pay ən azı 15% artacaq. Yaxın ortamüddətli ssenarilərə görə, 2013-cü ildə ÜDM-in adambaşına həcmi 3,8% artaraq 5.047,2 manata, 2014-cü ildə 6,4% artaraq 5.543 manata, 2015-ci ildə isə 5,3% artaraq 5.963,1 manata çatacaq.

Sosial-iqtisadi inkişaf proqnozlarına əsasən, qarşıdakı üç ildə özəl sektorun çəkisi də əhəmiyyətli dərəcədə artaraq ÜDM-də təxminən 87%-ə bərabər olacaq. Azərbaycan həmin dövrdə Cənubi Qafqaz iqtisadiyyatının təxminən 90 faizlik payına sahib olacaq.

Asiya İnkişaf Bankı (AİB) dünya ölkələrinin, o cümlədən Azərbaycanın iqtisadiyyatı ilə bağlı proqnozlarda bir sıra indikatorlara dəyişiklik edib. Ümumilikdə AİB-nin ölkəmizlə bağlı iqtisadi artım, inflyasiya göstəriciləri, əhalinin gəlirləri və digər parametrlər üzrə sosial-iqtisadi inkişaf proqnozları çox nikbindir. Yekun rəyə əsasən, Azərbaycanda davam edən iqtisadi inkişaf dinamikasının yeni ildə sürətlənəcəyi, maliyyə ehtiyatlarının artımı fonunda respublikamızın sosial-iqtisadi hədəflərinin tammiqyaslı şəkildə yerinə yetiriləcəyi proqnozlaşdırılır.

Makroiqtisadi və makrososial inkişaf proqnozlarına əsasən, 2013-cü ildə ölkədə maliyyə sabitliyi potensialı möhkəmlənəcək, inflyasiyanın birrəqəmli həddə saxlanması və iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsi əsas məqsədlərdən olacaq. Ölkədə sosial infrastruktur, investisiya layihələrinin davamlılığının təmin olunması, sosial proqramların icrasının genişləndirilməsi prioritetliyini saxlayacaq.

AİB qarşıdakı üç ildə Azərbaycanda əməliyyatlar üzrə biznes planını da təsdiqləyib. Bankın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Olli Noroyono bildirir ki, tərəfdaşlığa dair yeni strategiya müasir dövrün iqtisadi tələbləri nəzərə alınmaqla hazırlanıb. Hazırda yeni inkişaf konsepsiyası ilə irəliləyən Azərbaycanla AİB-nin fəaliyyət strategiyası tamamilə modern iqtisadiyyatın tələbələri üzərində qurulacaq. Bankın Azərbaycanla əməkdaşlıq strategiyasına sosial və infrastruktur layihələri daxildir. Respublikamızla əməkdaşlığa başladığı dövrdən indiyə qədər layihələrə 1 milyard dollara yaxın investisiya yatıran bankın fəaliyyət fəlsəfəsində insan amili başlıca yer tutur və layihələrin icrası insanların həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilir. Azərbaycanın bölgələrində yolların yenidən qurulması, enerji və su təsərrüfatının modernləşdirilməsi də məhz insanların sosial yaşayış imkanlarının yaxşılaşmasında ciddi rol oynayır.

Asiya İnkişaf Bankının hesabatında ölkəmizdəki inkişaf dinamikası və insan həyatının sosial inkişafı barədə aydın təsəvvür əldə etmək olar. AİB-nin hesabat və proqnozlarında qeyd olunur ki, maliyyə böhranını aşmaqda olan Mərkəzi Asiya ölkələrində inflyasiya hələ də hissolunacaq səviyyədə - 7,5%-dir. «Yeni resessiyalar fonunda bu rəqəm 2012-ci ilin sonuna 8,2%, 2013-cü ilin sonuna isə 6,7% ola bilər. İnflyasiya yaradan əsas səbəb ərzaq qiymətlərinin artmasıdır. Azərbaycanda bu tendensiyanın neqativ təsirləri nəzərə çarpmır. Bununla belə, Mərkəzi Asiya və Cənubi Qafqaz bölgəsində milli gəlirlərin azalması fonunda xarici borc faktoru qabarıq nəzərə çarpır. Xarici borcu daha çox olan ölkələr isə Qırğızıstan, Tacikistan, Ermənistan və Gürcüstandır. Ermənistanda bu borc son 2 ildə rekord səviyyədə artmışdır. Digər ölkələrdə isə xarici borc özəl sektora aiddir. Buna səbəb maliyyə böhranı nəticələrinin həmin ölkələrin tikinti və bank sektorunu vurması olmuşdur. Azərbaycan bu məsələdə çox əlverişli mövqeyə malikdir. Ölkənin xarici borcu 3,7 milyard dollardır, təkcə Neft Fondunun maliyyə ehtiyatları bu borcdan 5,5 dəfə çoxdur.

Azərbaycan hökumətinin ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq məqsədilə qeyri-neft sektorunun inkişafı ilə bağlı konsepsiyası AİB-də də böyük maraq doğurur və təşkilat bu sahənin inkişafına öz töhfəsini verməkdə qərarlıdır. Bankın Azərbaycandakı nümayəndəliyinin

rəhbəri Olli Noroyono qeyd edir ki, Azərbaycanda son illər əhəmiyyətli dərəcədə pozitiv göstəricilər və dayanıqlılıq müşahidə olunur. İqtisadiyyata kredit yönəldilməsi və pul kütləsi artıb. Bu da əsasən yeni neft yataqlarının kəşf olunması ilə şərtləndirilir. Digər tərəfdən, kənd təsərrüfatı istehsalında ƏDV-nin aradan götürülməsi, antikorrupsiya fəaliyyəti, elektron hökumətin yaradılması müsbət təmayüllərə təkan verən amillərdəndir. Qeyri-neft sektorunda daha çox artım müşahidə olunması isə bu sahəyə diqqəti artırır. Bu artım davam edərsə, bir neçə ildən sonra ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq mümkün olar.

Elbrus CƏFƏRLİ